**E.Y.ƏLİYEVA**
*müəllim*
*e-mail: aliyeva.elnura@list.ru*
**: https://orcid.org/ 0009-0002-7765-0012**

**Azərbaycan Dillər Universiteti**
(Bakı şəh., R.Behbudov küç., 134)

**10.62021/0026-0028.2024.4.026**

# İNTONASİYA SÖYLƏMİN SUPRASEQMENT TƏRTİBİ VASİTƏSİ KİMİ

***Xülasə.*** *Məqalədə söyləmin mənasının ifadəsində müstəsna əhəmiyyətə malik sintaqmatik üzvlənmə araşdırılmışdır. Söyləmin mənasının dəqiqləşməsində dildaxili amillər arasında əsas yeri tutan sintaqmatik üzvlənmə, bir qayda olaraq, prosodik – melodiklik, intensivlik, temporal və fasilə vasitəsi ilə reallaşır. Məqalədə söyləmin sintaqma üzvlənməsini əyaniləşdirmək üçün konkret nümunələrdən istifadə edilmişdir. Səsli nitqin xarakterik xüsusiyyəti kimi, sintaqmatik bölgü universal və milli xarakter daşıyır, buna görə də hər bir dilə münasibətdə melodiyanın sintaksislə, xüsusən də dillə əlaqəsi ilə müəyyən edilən xüsusi sintaqmatik üzvlənmə, yəni semantik-sintaktik və kommunikativ-sintaktik əlaqələr barədə danışmaq olar.*

***Açar sözlər:*** *sintaqm, sintaqmatik üzvlənmə, intonasiya, seqment, söyləm, prosodiya, sintaqmatik*

Son zamanlar linqvistik tədqiqatlarda canlı danışıq müxtəlif istiqamətlərdən tədqiqə cəlb edilir. Bu, çox güman ki, danışığın reallaşması vasitəsi, söyləmin yaranması qanunları və onun semantik qatının ifadəsinin ümumi qanunlarının dərk edilməsi ilə sıx bağlıdır. Bu, ilk növbədə, ifadənin semantik tərtibat vasitəsi olan və ənənəvi başa düşülən cümlənin tərkib hissələrindən biri olan sintaksis və intonasiya səviyyələrində özünü göstərir. Xatırladaq ki, heç də həmişə söyləmin reallaşmasında intonasiya və sintaktik normalar üst-üstə düşmür və bu yayınmaların əsasında bəzən subyektiv, bəzən isə obyektiv səbəblər dayanır. Şübhəsiz ki, spontan danışıq özünün qanunlarına uyğun şəkildə qurulur, onun dərk edilməsinin səmərələşdirilməsi isə müasir dilçiliyin aktual məsələlərindən biridir. F.Y.Veysəllinin qeyd etdiyi kimi, “Cümlədə ifadə olunan fikrin daha aydın və birmənalı başa düşülməsi üçün dil üç mühüm dildaxili və dilxarici amildən geniş istifadə edir. Dildaxili amillərə intonasiya, söz sırası və semantik həmrəylik prinsipləri aiddir. Dilxarici amil deyəndə, ilk növbədə, presuppozisiya yada düşür” [1, s. 237].

Söyləmin məna qatının formalaşması və ifadəsində seqment vahidlərlə yanaşı, supraseqment vasitələr – intonasiya, söyləm vurğusu, fasilə və s. mühüm rol oynayır. Söyləmin ifadə qatını (prosodik tərtibatını) formalaşdıran intonasiya komponentləri dildə cümlənin sintaktik quruluşunun müəyyən xüsusiyyətləri ilə bağlıdır. Bu məqamı nəzərə alan F.Y.Veysəlli tam ədalətli olaraq “biz intonasiyanın köməyi ilə fikrimizi istənilən ölçüdə, biçimdə və semantik çalarda verə bilərik” [1, s. 237] fikrindən çıxış edir.

Lakin bildirmək istərdik ki, intonasiya ilə sintaksis arasındakı əlaqəni sintaktik və intonasiya vasitələrinin bir növ paralelliyinə endirmək olmaz. Həmişə sintaktik qəliblərə nisbətən fonoloji əhəmiyyətə malik olan intonasiya nümunələri, dinamik və melodik strukturlar az olur. Dilin eyni intonasiya vasitələri – müxtəlif nitq situasiyalarında – müxtəlif sintaktik mənaları ifadə etmək üçün istifadə olunur. Sintaqmın dominant roluna görə söyləmin semantik bölünməsinin ümumi qanunu sintaqmın hər bir spesifik dilə xas, ritmik-melodik quruluşu, sintaqmatik sərhədləri qeyd etməsidir.

Sintaqmatik üzvlənmə böyük ölçüdə hər bir konkret dilin sintaktik qaydaları ilə proqnozlaşdırılır. Dildə fəaliyyət göstərən qaydaların biliyinə əsaslanaraq, ən çox və ən az ehtimal olunan sərhədlər həm danışanın fikrini kodlaşdırır, həm də onu dinləyici tərəfindən dərk edilərkən proqnozlaşdırılır. Sintaqmların söyləmin yaranma qaydaları məcmusuna hər bir konkret dil üçün həm universal, həm də xüsusi, yəni həmin dilə məxsus qaydalar daxildir.

C.M.Babayevin qeydinə görə, "canlı danışığın sintaqmatik bölgüsü təbii xarakter daşıyır və hər bir dildə onların qrammatik sistemlərinin və tələffüz-prosodik əsaslarının xüsusiyyətləri, həmçinin söyləmin kommunikativ məqsədilə müəyyən edilən özünəməxsus xüsusiyyətlərə malikdir. Sintaqm konkret dilin sistemini həyata keçirdiyi üçün təkcə semantik-intonasiya vahidi kimi deyil, həm də struktur-sintaktik vahid kimi meydana çıxır. Bu həm də ekstralinqvistik amillərdən asılıdır, məsələn: hər bir insanın danışıq tərzi və danışanın məqsədi (niyyəti)" [2, s. 42].

Müəllif fikrinin davamında qeyd edir ki, "sintaqm intonasiya, struktur və mənaca bir bütövdə birləşən, konkret məzmunun vahid minimal fraqmentini əks etdirən sözlər qrupu kimi çıxış edir. Onda müəyyən semantik birliyin intonasiya tərtibatı, dilin sintaktik xüsusiyyətləri və söyləmin semantik özəlliyi ilə kəsişir. Struktur kimi sintaqm bir sözdən ibarət ola bilər, təbii ki, danışanın fikrincə, digər sintaqmlarla birlikdə nitq situasiyasının konkret fraqmentini əks etdirmək üçün kifayətdirsə" [2, s. 42].

Məlumdur ki, müasir dilçilikdə sintaqm anlayışı dilçilər tərəfindən müxtəlif cür şərh olunur. "Sintaqm" termini ilk dəfə F. de Sössür tərəfindən istifadə edilmişdir. O, sintaqmı "iki (və ya daha çox) dil vahidinin ardıcıllığı (məsələn: "dəmir + çı" morfemləri, "təzə + bina" sözləri, söz birləşmələri, cümlələr) müəyyən bir əlaqə növü ilə (məsələn, atributiv) bağlanan ardıcıllıq kimi izah edir" [3, s. 15].

L.V.Şerba sintaqmı "müəyyən kontekstdə və verilmiş situasiyada məna ifadə edən və bir sözdən, sözlər qrupundan və bütöv bir cümlədən ibarət intonasiya-semantik birlik", başqa sözlə, "nitq-fikir prosesində vahid semantik bütövü ifadə edən və bir ritmik qrupdan və ya onların ardıcıllığından ibarət fonetik bütöv" [4, s. 86] kimi izah edir. Akademik L.V.Şerba sintaqmın fonetik mahiyyətini izah edərkən yazır ki, sintaqm "bizim onu heç bir şəkildə məhv etmədən təcrid edə biləcəyimiz və verilmiş kontekstdə və müəyyən bir vəziyyətdə vahid anlayışa uyğun gələn ən qısa nitq parçasıdır" [5, s. 77]. Yuxarıdakı sitatlardan göründüyü kimi, akad. L.V.Şerbanın sintaqma verdiyi tərif onun F. de Sössür anlamından tamamilə fərqlidir. Akad. L.V.Şerbanın sintaqm anlayışı daha geniş və əsaslıdır, çünki danışıq axınında və intonasiya nəzərə alınmaqla izah olunur. L.V.Şerbanın fikrinə sadiq qalaraq biz də hesab edirik ki, sintaqmın tərifi semantik-fonetik prinsiplərə əsaslanmalıdır.

Prosodik hadisə müəyyən funksional sinfə (məsələn, söz, sintaqm, cümlə) aid olan dil vahidlərinə xidmət etmək üçün mövcuddur və eyni prosodik vasitə verilmiş funksional sinfin müxtəlif vahidlərində baş verir, yəni məsələn, müxtəlif sözlərdə eyni tipli vurğu, müxtəlif cümlələrdə eyni intonasiya konturu və s.

Sintaqmın tərtibini müəyyən bir dilin öyrənilməsində müqayisə edilən müxtəlif fonostilistik mənsubiyyətli söyləmlərə xas və onların aydın semantik fərqləndiricisi kimi çıxış edən xüsusiyyət hesab etmək olar. Sintaqmatik üzvlənmə sadəcə formal dil vasitəsi deyil, o, həm də söyləmin semantik qatının ünsiyyət situasiyasına (konsituasiyaya) uyğunlaşmasını təmin edən semantik hadisədir. Deməli, sintaqmatik üzvlənmə sintaktik-semantik mahiyyətli fenomendir.

Bu məqsədlə Azərbaycan dilindən seçilmiş bir neçə cümləni nəzərdən keçirmək istərdik:

/Ana vətən, məni səsləyir// və ya /Ana, vətən məni səsləyir//;

/Polad dəmirlər, əridilməlidir// və ya / Polad, dəmirlər əridilməlidir//;

/Balaca uşaq, məktub yazır// və ya / Balaca, uşaq məktub yazır//;

/Kamal həkim, bizə gəldi// və ya /Kamal, həkim bizə gəldi//.

Bu nümunələrdə sintaqmatik üzvlənmə, ilk növbədə, polisemiyanı aradan qaldırır. Verilmiş cümlələrin hər biri ən azı iki fərqli mənada başa düşülə bilər. Bu cümlələrin hər biri-

nin propozisional məzmunu sabit qaldığı üçün biz onların hər birinin mənasını sintaqmatik üzvlənməsindən asılı olmayaraq başa düşə bilirik. Bununla belə, onların semantik qatında (törəmə qrammatikanın termini ilə desək, alt strukturunda) olan ikimənalılığı aradan qaldırmaqda onların sintaqmlara bölünməsi kontekstlə şərtlənmiş və hər bir cümlənin prosodik tərtibatında öz əksini tapmış struktur-semantik mahiyyətli hadisədir. Nümunələrə istinadən demək olar ki, hər bir konkret cümlənin sintaqmlara bölünməsi fərqli məna çalarları ilə müşayiət olunur. Sintaqmatik üzvlənmə isə ixtiyari xarakter daşımır: onun reallaşması, bir tərəfdən danışanın kommunikativ niyyəti, digər tərəfdən, ötürülən informasiyanın xarakterindən asılıdır.

Verilmiş nümunələrdə sintaqmlar üzrə intonasiya konturu aşağıdakı formada reallaşmışdır: proqrediyent sintaqmda intonasiya konturu davamedici intonasiya konturu, terminal sintaqmda isə bitkinlik intonasiya konturu kimi reallaşmışdır. Terminal sintaqmların sonunda tempin ləngiməsi də bitkinlik intonasiyasının xarakterik əlamətidir. Sintaqm daxilində tempin linqvistik yükü danışan üçün nitq seqmentinin müxtəlif əhəmiyyətini ifadə etməkdən ibarətdir. Tələffüz tempi ilə cümlənin kommunikativ növü arasında müəyyən əlaqə vardır: bitkinlik intonasiyası üçün nisbətən yavaş temp xarakterikdir. İntonasiya vahidlərinin orta tempi ilə yanaşı tempin dinamikasından da danışmaq olar. Ən ümumi tendensiya vahidin sonuna doğru tempin bir qədər zəifləməsidir və bunu söyləmin ən vacib elementlərinin sona yaxın yerləşməsi ilə əlaqələndirmək olar. Eyni bir cümlə daxilində sintaqmların intonasiya konturunu aşağıdakı kimi təqdim etmək olar:



Təbii ki, bu ikisintaqmlı cümlələrdə sintaqmlar arasında fasilə də mühüm rol oynayır. Cümlələrdə sintaqmlararası (proqrediyent və terminal sintaqmlar arasında) fasilə düşünülmüş fasilədir və danışıq aktında cümlələrin konsituasiyaya uyğunlaşmasını təmin edən dildaxili amildir.

Sintaqmatik üzvlənmənin intonasiya komponentləri arasında fasilə xüsusi yer tutur. İntonasiya nəzəriyyəsində pauza həm səsin faktiki fasiləsi (fiziki fasilə), həm də intonasiyanın digər komponentlərinin (melodik, temporal və dinamik konturlar) inkişafındakı dəyişikliklər (fasilələr) nəticəsində yaranan və L.V.Bondarkonun da qeyd etdiyi kimi, "nitq axınındakı hiss olunan fasilə kimi başa düşülür" [6]. İntonasiya baxımından ən çox variativ və maraqlı olanı söyləm daxilindəki fasilələrin uzunluğudur, çünki o təkcə danışıq axınının semantik (məna) bloklara (sintaqmlara) bölünməsi faktını deyil, həm də seqmentlər arasındakı semantik əlaqənin xarakterini əks etdirir.

Sintaqmlar arasında intonasiya pauzalarının semantik yükü çox əhəmiyyətlidir. Fasilə söyləmi intonasiya və semantik vahidlərə (fraza və sintaqm) bölmək üçün universal vasitədir. Nitq axınında müəyyən yerlərdə fasilələrin olması, digərlərində isə yoxluğu bitişik sözlər arasında fərqli semantik əlaqədən xəbər verir. Fərqli pauza növlərinin (uzunluğundan və digər intonasiya vasitələri ilə birləşməsindən asılı olaraq) mövcudluğu sayəsində intonasiya-semantik vahidlər arasında əlaqənin müxtəlif xarakterini ifadə etmək mümkün olur. Bu zaman intonasiya vasitələri, ilk növbədə, bağlılıq dərəcəsini ifadə etmək üçün işlədilir, lakin söyləmin leksik-qrammatik quruluşu ilə birlikdə əlaqənin keyfiyyət xarakteri də dəqiqləşdirilir. Fasilə, R.K.Potapova görə, "temaya uyğun gələn bir söz və ya sintaqmdan sonra ifadənin temasını göstərə bilər. Çox vaxt temanın fasilə göstəricisi mövqeli bir işarə ilə müşayiət olunur: tema-söz söyləmin əvvəlində yerləşdirilir və sonuncunun qalan hissəsindən fasilə ilə ayrılır. Belə bir fasilə, bir qayda olaraq, söyləmdə ən vacibdir və yüksək sabitliyə malikdir" [7, s. 65].

Beləliklə, sintaktik bütövün sintaqmlara (kontekstə uyğun kiçik fonetik-semantik qruplara üzvlənməsi prosodik vasitələr hesabına həyata keçirilir. Sintaqmatik üzvlənmədə melodik, temporal, dinamik parametrlərlə yanaşı, sintaqmlararası fasilə də mühüm rol oynayır.

**İşin elmi nəticəsi:** Sintaktik bütövün sintaqmlara üzvlənməsi onun alt (məna) qatındakı polisemiyanın aradan qaldırılmasına xidmət edir. Sintaktik bütövün sintaqmlara (fonetik-semantik-sintaktik kiçik hissələrə) üzvlənməsi onun konsituasiyaya uyğunlaşmasının, daha doğrusu, dilin immanent xüsusiyyəti variativləşmənin bariz nəticəsidir.

**İşin elmi yeniliyi:** Məqalənin yeniliyi cümlə semantikasının problemlərin çoxşaxəliliyi, aktuallığı və perspektivlərinin işıqlandırılması, problemlə bağlı dilçilərin fərqli yanaşmalarının təqdim edilməsi, müasir kommunikasiya nəzəriyyəsində qarşılıqlı anlaşma problemlərinin həllində sintaqmatik üzvlənmənin konkret mənbələr və dil nümunələri əsasında tədqiq edilməsindədir.

**İşin tətbiqi əhəmiyyəti:** Məqalənin nəticələrində sintaqm, söyləmin sintaqmatik üzvlənməsi, onun məna qatının açılması, xarici dillərdə söyləmin mənasının başa düşülməsində sintaqmatik üzvlənmənin tədqiqi məsələlərinin təhlilinə həsr edilmiş müxtəlif səviyyəli tədqiqat işlərində istifadə edilə bilər.

## Ədəbiyyat


1. Veysəlli, F.Y. Struktur dilçiliyin əsasları [7 cilddə] / F.Y.Veysəlli. – Bakı: Mütərcim, – c. 2, – 2008. – 308 s.
2. Бабаев, Дж.М. Семантико-синтаксическая функция синтагматического членения// Фонетика в современной лингвистической парадигме: Сб. науч. статей / редкол.: Е.Б.Карневская и др. – Минск: МГЛУ, – 2021. – с. 41-44.
3. Соссюр, Ф. де. Курс общей лингвистики. Труды по языкознанию / Ф. де Соссюр. – М.: Прогресс, – 1977. – 695 с.
4. Щерба, Л.В. Фонетика французского языка / Л.В.Щерба. – М.: Высш. шк., – 1963. – 308 с.
5. Щерба, Л.В. Преподавание иностранных языков в средней школе. Общие вопросы методики / под ред. И.В.Рахманова. – Изд. 2-е. – М.: Высшая школа, – 1974. – 111 с.
6. Бондарко, Л.В. Фонология речевой деятельности / Л.В.Бондарко. – СПб., – 2000. – 200 с.
7. Потапова, Р.К. Коннотативная паралингвистика / Р.К.Потапова. – М., – 1997. – 65 с.


**E.Y.Alieva**

**Intonation as a Means of Suprasegmental Composition of Speech**

***Summary***

The article examines the syntagmatic articulation, which is of exceptional importance in the expression of the meaning of the utterance. Syntagmatic articulation, which occupies a key place among the intralinguistic factors in the clarification of the meaning of the utterance, is realized, as a rule, through prosodic-melodiousness, intensity, temporality and pause. The article uses spesific examples to illustrate the syntagmatic articulation of the utterance. As a characteristic feature of vocal speech, syntagmatic division has a universal and national character, therefore, in relation to each language, we can talk about special syntagmatic articulation, i.e., semantic-syntactic and communicative-syntactic relationships, determined by the connection of melody with syntax, in particular with language.

***Key words**: syntagma, syntagmatic division, intonation, segment, utterance, prosody, syntagmatic*

**Е.Ю.Алиева**

**Интонация как средство супрасегментного оформления высказывания**

***Резюме***

В статье исследуется синтагматическое членение, имеющее исключительное значение в выражении смысла высказывания. Синтагматическое членение, занимающее главное место среди внутриязыковых факторов выяснения смысла речи, реализуется, как правило, посредством просодических средств – мелодичности, интенсивности, темпоральности и паузы. В статье на конкретных примерах объективировано членение предложения в синтагму. Как

обязательная характеристика звучащей речи, синтагматическое членение универсал и национально специфична, поэтому применительно к каждому языку можно говорить об особой синтагматическом членении, специфика которого определяется вязью мелодики с синтаксисом, в частности с основными глубинными семантико-синтаксическими и коммуникативно-синтаксическими отношениями.

***Ключевые слова***: *синтагма, синтагматическое членение, интонация, сегмент, высказывание, просодия, синтагматический*

*Rəyçi: filol.f.d. C.M.Babayev*

*Redaksiyaya daxil olub: 15.11.2024*